**Azərbaycan Respublikasının vergilər nazirinin "21" may 2015-ci il tarixli 1517040100646900 nömrəli əmri ilə təsdiq edilmişdir.**

# VƏZİFƏ TƏLİMATI № 2-1

| | |
|---|---|
| **Strukturun adı:** | Vergilər Nazirliyinin Tədris Mərkəzi |
| **Vəzifənin adı:** | Mərkəzin rəisi |
| **Vəzifə maaşı:** | 890 AZN |
| **İş yerinin yerləşdiyi yer:** | Şamaxı şəhəri |
| **Bilavasitə tabe olduğu şəxs:** | vergilər naziri, vergilər nazirinin birinci müavini və vergilər nazirinin müavini |
| **Vəzifə funksiyaları:** | 1. Mərkəzin fəaliyyətinə ümumi rəhbərlik etmək, işini təşkil etmək və istiqamətləndirmək;<br>2. Bütün dövlət orqanlarında, idarələrində və təşkilatlarında Mərkəzi təmsil etmək;<br>3. Mərkəzin rəis müavinləri və struktur bölmələri rəhbərlərinin səlahiyyətlərinə aid olan vəzifələrin yerinə yetirilməsinə nəzarəti həyata keçirmək;<br>4. İxtisasartırma təhsilinə dair dövlət orqanlarının qərarlarının yerinə yetirilməsini təmin etmək;<br>5. Elmi Şuranın işinə rəhbərlik etmək;<br>6. Kadrların seçilməsi, yerləşdirilməsi və tutduğu vəzifədən azad edilməsi, onların ixtisaslarının artırılması məqsədilə Vergilər Nazirliyinə təkliflər vermək;<br>7. Mərkəzin vəzifəli şəxslərindən başqa digər işçiləri ilə əmək müqaviləsi bağlamaq və onu ləğv etmək;<br>8. Mərkəzin bütün işçilərinin və dinləyicilərinin icra etməli olduğu əmr və sərəncamlar vermək;<br>9. Öz səlahiyyətləri çərçivəsində Mərkəzin maliyyə fəaliyyətinə dair məsələlərin həll edilməsini təmin etmək;<br>10. Elmi-tədqiqat işlərinin yerinə yetirilməsi və digər işlər üçün ödənilməli olan haqqın məbləğini müəyyən etmək;<br>11. Qanunvericiliyə uyğun olaraq Mərkəzdə tədris yükünün miqdarını müəyyən etmək;<br>12. Mərkəzin işçilərinin əmək haqqının ödənilməsini və onların mükafatlandırılmasını təşkil etmək;<br>13. İdarə, müəssisə, təşkilat və vətəndaşlardan Mərkəzə daxil olmuş təklif, ərizə və şikayətlərə baxılmasını və nəticəsindən asılı olaraq müvafiq tədbirlərin görülməsini təmin etmək;<br>14. Mərkəzin əmlak və avadanlıqlarından məqsədyönlü istifadə olunmasına sərəncam vermək, saxlanılmasına nəzarət etmək;<br>15. Mərkəzin maddi-texniki bazasının genişləndirilməsini və təkmilləşdirilməsini təmin etmək;<br>16. Mərkəzə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və onun funksiyalarının həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşımaq;<br>17. Azərbaycan Respublikasının qanunvericiliyinə və Tədris Mərkəzinin Əsasnaməsinə uyğun olaraq digər vəzifələri həyata keçirmək. |

| | |
|---|---|
| **Təhsil və ixtisas tələbləri:** | hüquqşünaslıq, beynəlxalq münasibətlər, iqtisadiyyat və idarəetmə ixtisas istiqamətləri üzrə ali təhsil |
| **Staja dair tələb:** | bir qayda olaraq vergi orqanlarında 3 il xidmət, və yaxud, ali və əlavə təhsil sahəsində 5 il pedaqoji staj. |
| **Kompüter biliklərinə dair tələblər:** | (MS WINDOWS, MS OFFICE, INTERNET və s.) – yüksək səviyyədə |
| **Xarici dil bilikləri:** | rus dili (orta səviyyədə), ingilis dili (orta səviyyədə) |
| **Təşkilatçılıq bacarığı:** | yüksək səviyyədə |
| **Komanda qurmaq bacarığı:** | yüksək səviyyədə |
| **Konfliktləri idarə etmək bacarığı:** | yüksək səviyyədə |
| **Problemi həll etmək bacarığı:** | yüksək səviyyədə |
| **Qərarvermə qabiliyyəti:** | yüksək səviyyədə |
| **Ünsiyyət qabiliyyəti:** | yüksək səviyyədə |

Tərtib etdi: **İnsan resursları idarəsi və vəzifə təlimatlarının hazırlanması üzrə işçi qrup**

**Qeyd:** bu vəzifə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 5 iyun tarixli 90 nömrəli qərarı təsdiq edilmiş "Azərbaycan Respublikası Vergilər Nazirliyinin Tədris Mərkəzinin Əsasnaməsi"nə uyğun olaraq müsabiqə və ya vergi orqanlarında xidmət edən əməkdaşlar üçün Vergilər Nazirliyinin əmrləri əsasında tutulur.